**"Məcburi dövlət sosial sığorta ödəmələri üzrə borcların tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə**

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Məcburi dövlət sosial sığorta ödəmələri üzrə borcların tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Müəyyən edilsin ki, həmin Qanunun 1-ci bəndinin birinci abzasında nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi həyata keçirir. [1]

2. Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu öz səlahiyyətləri daxilində "Məcburi dövlət sosial sığorta ödəmələri üzrə borcların tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn məsələləri həll etsin.

**Azərbaycan Respublikasının Prezidenti**

**HEYDƏR ƏLİYEV**

**Bakı şəhəri, 15 iyul 2000-ci il**

**№ 368**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2892-2893.**